Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 44-49**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 44-49**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 44-49**

UOT 78.371

A.H.Qəribova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68

SOLFECİO DƏRSLƏRİNDƏ İNNOVASİYALI İŞ METODLARI

Açar sözlər: *tədrisdə innovasiya, solfecio, təhsil, islahat, eşitmə qabiliyyəti*

Solfecio fənninin tədrisi sistemində innovasiyalar tədrisə yeni yanaşmalarda, yeni şəraitdə köhnə üsullara yenidən baxılması və dərk edilməsində, yəni ənənəvi pedaqogikaya yenilik gətirməkdə özünü göstərir. XXI əsrdə solfecio fənnini elə tədris etmək lazımdır ki, şagird əməli şəkildə bu fənnin həqiqətən möcüzəli imkanlarına inansın.

А.Г.Гарибова

ИННОВАЦИОННЫЕ МЕТОДЫ РАБОТЫ НА УРОКАХ СОЛЬФЕДЖИО

Ключевые слова: *инновации в преподавании, сольфеджио, образование, реформа, музыкальный слух*

Инновации в системе преподавания сольфеджио состоят в новых подходах к преподаванию, в осознании старых методов в новых условиях, в привнесении нового в традиционные методики. В XXI веке надо так преподавать сольфеджио, чтобы на деле убедить учащегося в поистине удивительных возможностях этого предмета.

A.H.Garibova

INNOVATIVE METHODS OF WORK IN SOLFEGGIO LESSONS

Key words: *innovation in teaching, solfeggio, education, reform, ear for music*

Innovations in the solfeggio teaching system consist in new approaches to teaching, in the awareness of old methods in new conditions, in bringing new

ones into traditional methods. In the 21st century, it is necessary to teach solfeggio in such a way as to actually convince the student of the truly amazing possibilities of this subject.

Təhsildə innovasiya dedikdə, müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyati, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur. Bu məqsədlə bir çox ölkələrdə müvafiq təhsil strategiyaları və inkişaf proqramları hazırlanmış, hazırda icra edilməkdədirlər. Bütün pedaqoji texnologiyalar təlim strategiyasına əsaslanır ki, bunun vasitəsilə təlimə verilən əsas tələblər, təlimin planlaşdırılması, üsulları və formaları müəyyənləşdirilir.

Bu gün ölkəmizin musiqi təhsilində solfecio fənninin var olması məsələsi çox kəskin və qabarıq şəkildə ortaya çıxmışdır. Həm fənnin məzmunu, həm onun tədrisi metodikası krizis yaşayaraq, özünün hərtərəfli səmərəliliyini isbat etməli olur. XXI əsrdə solfecio tədrisində ortaya çıxan ən vacib suallardan biri aşağıdakıdır: fənnin məzmununu bəsitləşdirmədən, onu yeni nəsil şagirdlər üçün necə maraqlı və cazibəli etmək olar? Demək olar ki, bizim musiqili gələcəyimizin mühüm məsələsi həll olunur: gənclərin tərbiyəsi və təlimində yeni nəticəyönümlü yanaşmanı axtarıb-tapmaq. Axı "solfecio musiqiçilər üçün ən qaralama və eynizamanda ən böyük bir fənndir. O, musiqi peşəsinin ən vacib məhvumuna – musiqi eşitmə qabiliyyətinə həsr edilibdir". (1, 98). Demək ki, bilavasitə musiqi eşitmə qabiliyyətinin hərtərəfli inkişafına yönəlmiş solfesio iki məqsəd güdür:

1) peşəkar – yüksək səviyyəli musiqiçi-mütəxəssis yetişdirmək;

2) sosial – fəal dinləyici və musiqisevər şəxs tərbiyə etmək.

Solfecio – çox profilli fəndir, o bir sıra müstəqil lakin bir-birilə qarşılıqlı əlaqəli məsələləri əhatə edir: eşitmə qabiliyyətin inkişafı, oxuma vərdişinin əldə edilməsi, musiqi nəzəriyyəsinin mənimsənilməsi, musiqi dili vasitələrinin mənimsənilməsi, musiqi təfəkküründün inkişafı. Lakin, fənnin bəzi problemli nöqtələri də mövcuddur, məsələn, konsert fəaliyyətindən təcrid olma, həddən artıq quru "nəzəriyyəçiliyə" sürüklənmə.

Yalnız aşağıdakıları həyata keçirdikdən sonra yuxarıda qeyd etdiyimiz krizisdən qurtulmaq mümkündür:

– Müxtəlif dövrlərə və üslublara çevik keçmək qabiliyyətinə malik "açıq eşitmə qabiliyyəti"ni tərbiyə etmək.

– Öyrənənlərin evdə və dərsdə yerinə yetirdikləri yaradıcı işlərin (improvizasiya, bəstə) rolunu artırmaq.

– Psixologiya elminin son nəticələrinə əsaslanaraq solfecio tədrisinin metodikasını inkişaf etdirmək.

– Fənnin musiqi bazasına müasir XXI əsr musiqisini, folkloru, caz və pop

musiqini daxil edərək, onu inkişaf etdirmək.

– İfaçı-musiqiçilərin konkret fəaliyyət spesifikasını nəzərə alaraq, solfecionu müasir konsert təcrübəsi ilə yaxınlaşdırmaq.

– Fəal şəkildə texniki təlim vasitələrini istifadə etmək (sintezator, stereoyazı, kompyüter proqramlarını).

Heç şübhəsiz ki, solfecio fənni musiqili-nəzəri blokun tətbiqi fənni olaraq qalacaq. Lakin yeni dövr onun hərtərəfli tətbiqini tələb edir. Solfecio dərsinə gələn hər bir öyrənci dərk etməlidir ki, məhz bu dərslərdə o, öz diqqətini, yaddaşını və diqər qabiliyyət və vərdişlərini inkişaf etdirə bilər, yəni ona gələcəkdə müxtəlif fəaliyyət sahələrində lazım olan hər bir şeyi (peşəkar musiqiçi olasa da, olmasa da). Bu çox vacibdir.

Solfecio fənninin tədrisi sistemində innovasiyalar tədrisə yeni yanaşmalarda, yeni şəraitdə köhnə üsullara yenidən baxılması və dərk edilməsində, yəni ənənəvi pedaqogikaya yenilik gətirməkdə özünü göstərir. Belə ki, innovasiyalı texnologiyaların tətbiqi baxımından musiqi nəzəriyyəsi və solfecio fənləri əsas yerlərdən birini tutur. Qrup şəklində tədris edilən dərslər (laborator məşğələlər) müxtəlif yeni pedaqoji texnologiya və İKT-nin fəal istifadəsinə imkan yaradır. Müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə tələbə arasında, tələbələrin öz aralarında və ali məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır.

XXI əsrdə solfecio fənninin tədrisində bir dönüş baş verdi: musiqi nəzəriyyəsinin eşitmə yolu ilə mənimsənilməsinə yönəlmiş köməkçi fəndən solfecio musiqi qavramanın psixologiyasının praktiki hissəsinə çevrilir. Bu dönüş üçün isə ötən əsrdə işlənib-hazırlanmış müxtəlif metodikalar zəmin yaratmışdır (J.Dalkroz, K.Orf, Z.Koday, M.Krasyova, S.Maltseva, O.Raynen, V.Braynin, L.Barenboym, S.Sudzuki və digərlərinin konsepsiyaları).

Solfecio və nəzəriyyə dərslərində problemli metod daxilində müqayisəli təhlilin aparılması və məntiqi təfəkkürün inkişafı üçün müxtəlif diaqramlardan istifadə etmək (Eyler, Venn) məqsədəuyğundur.

Solfecio və nəzəriyyə dərslərində klaster (şaxələndirmə) üsulu da uğurla tətbiq oluna bilər. Müasir təhsil sistemi tələbələrdə müstəqil təfəkkürün formalaşdırılmasına yönəlmişdir. Təngidi təfəkkür elə pedaqoji texnologiyadır ki, şagirdlərin intellektual inkişafını stimullaşdırır. Klaster – bunun priyomlarından biridir. Klaster (ing. *cluster* –topa, salxım) – bir neçə eynicinsli elementlərin birləşməsidir ki, ona müəyyən xassələrə sahib olan müstəqil bir vahid kimi baxıla bilər. O, informasiyanın qrafik şəkildə elə təşkilidir ki, burada sxem şəklində əsas məna vahidləri onların arasındakı bütün əlaqələrin təyin edilməsi yolu ilə ayırd edilir. Bu üsul təlim materialının sistemləşdirilməsinə və ümumiləşdirilməsinə, tələbələrə hansısa bir mövzu barəsində azad düşünməyə, öyrənilən obyekt barəsində öz bilik və təsəvvürlərini dəyərləndirməyə imkan verir, onların yaddaşını inkişaf etdirir. Klaster üsulu təfəkkür proseslərini əyaniləşdirir.

Klasterin qurulması işi aşağıdakı mərhələlərdən ibarətdir:


1-ci mərhələ – təmiz vərəqin (və ya sinif lövhəsinin) ortasında açar söz və ya ibarə yazılır ki, bu söz (ibarə) mövzunun əsasını, ürəyini təşkil edir.

2-ci mərhələ – tələbələr bu mövzu ilə bağlı hafizələrində olan bütün fikirləri yazırlar və onları açar sözün ətrafında "səpələyirlər". Heç bir fikir tullanmır, hamısı yazılmalıdır.

3-cü mərhələ – sistemləşdirmənin həyata keçirilməsi. Müəllimin izahı və dərs materialının (dərslik, mühazirə) oxunuşundan sonra tələbələr öyrənilən materialı təhlil etməyə və sistemləşdirməyə başlayır. Xaotik şəkildə yazılmış assosiasiyalı sözlər qruplara birləşir ki, bu qruplarda bu və ya digər faktın, anlayışın məzmunu əks edilməlidir. Lazım olmayan, səhv yazılar pozulur.

4-cü mərhələ – ortaya çıxan sözlərin düz xətlər vasitəsilə açar sözlə əlaqələndirilməsi. Hər bir sözün "yoldaşı" ortaya çıxır və onun da öz növbəsinə "yoldaşı" yaranır, yeni məntiqi əlaqələr yaranır. Nəticədə elə struktur yaranır ki, o qrafik şəkildə bizim düşüncələrimizi əks etdirir, öyrənilən müvzunun informasiya sahəsini müəyyənləşdirir.


İndi də konkret bir misal verək. Solfecio və nəzəriyyə fənnlərində "İntervallar" mövzusu keçilir. Bu mövzu daxilində intervallar barəsində bilik və anlayışlar verilməlidir. Lövhənin ortasında açar ifadə "İntervallar" yazılır (şək.1). Bu ifadənin ətrafında bu mövzu ilə əlaqəli tələbələrin ağlına gələn sözlər yazılır və yuxarıda göstərilən bütün mərhələlərlə mövzu tam araşdırılır.



Şək.1. Klaster (şaxələnmə) üsulu

Belə iş təfəkkür fəaliyyətini stimullaşdırır, tələbələrin ötən illərdə musiqi məktəbində aldıqları biliklərini bərpa edir, materialın daha yaxşı mənimsənilməsinə şərait yaradır.

Son zamanlar Azərbaycanda tətbiq olunan müasir təlim metodikalarından biri olan interaktiv (fəal) təlim üsullarından və İKT-dən geniş istifadə olunmalıdır.



Şək. 2. Musiqili qrafika üsulu

Solfecio dərslərində fəal təlim metodlarından interaktiv və inteqrativ metodları istifadə etmək olar. İnteraktiv metod vasitəsilə tələbələr ənənəvi tədrisdə olduğu kimi passiv dinləyici kimi deyil, lakin tədris prosesinin fəal iştirakçıları kimi çıxış edirlər. Burada müəllim tələbələri prosesə daxil etmək üçün yeni mövzunun izahını bir qədər uzaqdan başlamalı, daha doğrusu, tələbələrə artıq əvvəllər təhsil aldıqları dövrdən məlum olan mövzulardan başlayıb, suallar vasitəsilə onları fəallığa şövq etmək lazımdır. Bunula bərabər müxtəlif fənnlər və incəsənət növləri arasında inteqrasiyanın da qurulması vacibdir. Solfecio və nəzəriyyə dərslərində bu inteqrasiyanın sinesteziya (və ya "musiqili qrafika") priyomu vasitəsilə qurulması mümkündür. Belə ki, səs düzümünün pillələri, habelə major və minor barəsində anlayışların mənimsənilməsində bu üsul çox uğurla tətbiq oluna bilər (şək. 2). Bütün bu üsulların tətbiqi zamanı İKT-dən fəal şəkildə istifadə etmək lazımdır.

Müasir təhsildə gedən qlobal proseslərin səciyyəvi xüsusiyyəti onun fasiləsiz modernləşməsidir. Təhsildə modernləşmənin əsas məqsədi bu gün reallaşan kütləvi təhsil şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir.

Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir. XXI əsrdə solfecio fənnini elə tədris etmək lazımdır ki, şagird əməli şəkildə bu fənnin həqiqətən möcüzəli imkanlarına inansın.

Məqalənin aktuallığı:

1. Müasir təhsil sistemində solfecio fənninin tədrisində innovasiyalı iş

metodlrı böyük əhəmiyyət kəsb edir ki, gənclərin hərtərəfli inkişafı üçün bu vacibdir.

2. Təhsildə modernləşmənin əsas məqsədi bu gün reallaşan kütləvi təhsil şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir. Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyənləşdirilir.

ƏDƏBİYYAT

1. И.И. Земцовский. Музыкальная коммуникация: сб. научных трудов. Вып. 8. - СПб, 1996, 480 səh.
2. Элементарное музыкальное воспитание по системе Карла Орфа // Сб. статей под ред. Л.А. Баренбойма. – М.,1978, 159 səh.
3. Жак-Далькроз Э. Ритм. – М.: Классика – XXI век, 2001, 248 səh.
4. В.Блок. Ладовое сольфеджио. М., 2019, 104 səh.

Məqalənin redaksiyaya daxil olma tarixi: 25.10.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.11.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.